Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 257-263
DOI:10.30546/gdu.3.2024

UOT:82-09.

# ƏHMƏD BƏY YARADICILIĞINDA ŞƏRQ-QƏRB MƏDƏNİYYƏTİ

***f.e.d.Həsənova Sevil Qiyas qızı, f.e.d. Quliyeva Qərənfil Dünyamin qızı***
***Bakı Dövlət Universitetinin-nun Jurnalistika fakültəsi***

**Xülasə:***19-cu yüzilliyin sonları və 20-ci yüzilliyin əvvəlləri Azərbaycanda müxtəlif sahələrdə çox görkəmli fikir, söz aydınları yetişmişdir. Onlar Azərbaycan ədəbiyyatının, mətbuatının, mədəniyyətinin, istiqlal tarixinin və ən əsası ictimai şüurunun formalaşmasında, inkişafında özünəməxsus, zəngin ədəbi-bədii irs qoyub gediblər. Belə görkəmli şəxsiyyətlərdən biri də, yalnız Azərbaycanda deyil, böyük Türk dünyasında, Şərq aləmində tanınmış fikir adamı Əhməd bəy Ağaoğlu idi. Ə.Ağaoğlu istedadlı jurnalist, publisist, yazıçı və uzaqgörən siyasi xadim kimi Azərbaycan, rus və fransız dillərində yazıb-yaratmış və zəngin ədəbi-bədii, elmi-nəzəri irsə sahib olmuşdur. Onların arasında Şərq-Qərb fəlsəfəsi və mədəniyyəti haqqında olan yazılar, əsərlər Ə.Ağaoğlunu tez bir zamanda həm ədəbi, həm də siyasi mühütdə məşhurlaşdırdı. Müəllif bu məzmunda olan məqalələrinin və əsərlərinin əksəriyyətini Türkiyədə mühacirət həyatı yaşayarkən yazıbdır. O, artıq bu əsərləri yazarkən dünyagörüşü, həyata baxışları formalaşmışdır. Ətrafda baş verən ictimai-siyasi hadisələri daima diqqətində saxlayan ədib onlar haqqında öz fikir və mülahizələrini aydın şəkildə bildirirdi. Hətta bəzi siyasi hadisələr haqqında öz sağlam tənqidi münasibətini də bildirməkdən çəkinmirdi. Odur ki, müəllifin həmin əsərlərin də, məqalələrin də irəli sürdüyü fikirlər, düşüncələr Şərq-Qərb fəlsəfəsini, mədəniyyətini, tarixini mükəmməl şəkildə əks olunub. Hüquqi dövlət, azad cəmiyyət quruculuğunda mühüm rol oynayan bu mənbələr bu gün də, sabah da aktualdır.*

**Açar sözlər:** cəmiyyət, Şərq-Qərb mədəniyyəti, mühacirət, ədəbi irs, hüquqi dövlət
**Ключевые слова:** общество, Восточно-Западная культура, иммиграция, литератур ное наследие, правовое государство
**Keywords:** society, East-West culture, emigration, literary heritage, legal state

**Giriş.** Ə.Ağaoğlu çox zəngin mədəniyyətə malik olan Şuşa şəhərində anadan olub. İlk təhsilini orada alan Əhməd bəy sonra Fransada Paris Hüquq Məktəbində mükəmməl təhsil əldə edib. O, burada oxuyarkən həm Fransanın dövrü mətbautında çap olunur, həm də dövrün görkəmli alimləri, siyasi xadimləri, ziyalıları ilə tanış olur. Bu mühüt Əhməd bəyin dünyagörüşünə, siyasi baxışlarına təsir edir. O, bu zaman yalnız Qərbi deyil, həm də Şərqi özü üçün kəşf edir və fransız mətbuatında Şərq, Qərb fəlsəfəsi haqqında məqalələr yazır. Bu yaradıcılığını Fransanı tərk edəndən sonra da davam etdiri. Xüsusən də 1920-30-cu illərdə Türkiyədə mühacirət həyatı yaşayarkən. Ə.Ağaoğlunun Qərbçiliyi mütərəqqi xarakter daşıyırdı. Məqalələrini, əsərlərini mükəmməl türkçə, rusça, fransızça yazan ədib hər üç dildə fikirlərini çox səlis və sadə dildə ifadə edirdi. Fikirlərində, hərəkətlərində səmimi və çox qəti olan Ə.Ağaoğlu, böyük həyat və mübarizə məktəbi keçmiş, təcrübəli bir siyasət adamı idi. Bunlar onun yaradıcılığında da özünü bürüzə verirdi. Bu məqalədə də müəllifin hüquq və dövlət mələlələrinə, Şərq-Qərb mədəniyyətinə həsr etdiyi əsərlərindən bir necəsi haqqında bəhs edəcəyik.

**Əsas hissə.** Ə.Ağaoğlu təkcə Azərbaycan ədəbi-mədəni mühitində deyil bütün türk dünyasında böyük hörmət və izzət sahibi olan qələm əhlidir. Ömrünü mühacirətdə keçirən Əhməd bəyin ədəbi-bədii irsinin böyük hissəsi də mühacirət dövründə ərsəyə gəlib. Onun mühacirət dövrü ərsəyə gətirdiyi nəsr yaradıcılığının dəyərli örnəklərindən bir də "İhtilalmı inkilapmı" əsəridir. Müəllif bu əsərini 1922-ci ildə Ankarada fəaliyyətdə olunan "Hakimiyeti

DOI:10.30546/gdu.3.2024

milliye" qəzetində sil-silə şəklində çap etdirib. 1942-ci ildə oğlu Səməd Ağaoğlu həmin məqalələri kitab şəklində çap etdirib.

Əsərin ilk cümləsindən bəlli olur ki, müəllif millətinin, vətəninin, gələcək taleyi haqqında çox narahatdır. Odur ki, əsərinə bir necə aktual suallarla başlayır. "Ufkun öte tarafından bizi ne bekliyor? Memleketimiz ve halkımız için ne gibi mustakbel bir hayat tasavvur ediyoruz? Hulasa hangi mefkurenin tahakkukuna doğru yürüyoruz?"(1.s.7).

Müəllif millətinin, vətəninin azadlığını sevən hər kəsi bu suallar ətrafında düşünməyə vadar edir. "Həpimiz bir nokdada müttehit ve müttefikiz: Haki paki vatanı istihlas ve mevcudiyeti milliye ve istiklali-millimizi temin hususunda!" hər kəsi vətəni, milləti üçün mübarizə aparmağa çağırır. Fərq etməz zəngini, kasıbı, qadını, kişisi, şəhərlisi, kəndlisi hər kəs "həp yekdil ve yekcihettir" (1.s.8).

Ə.Ağaoğlu əsərinin girişində hüquqi dövlət prinsipləri, əxlaq qaydaları haqqında da məlumat verir. "Ahlakıyat noktai nazarından bizce yalnız vicdan umuminin tasvibine mazhar olan her hanki bir hükumet meşrudur. Onun haricinde her hanki bir hükümet qayri meşrudur ve binaenaleyh gasıb ve cebbardır, işldeigi her fiil qayri meşrudur. Böyle bir hükümete tabiiyet günah olduğu gibi, aleyhine kıyam da bir vecibe ve sevaptır" (1.s.11). Ədibin "əxlaq və hüquq fikirlərinə o doğru olaraq belə hesab edirdi ki, ictimai şüurun bu formaları mahiyyətləri etibarilə dəyişən və bir-birini əvəz edən fenomenlərdir"(6.s.41).

Əsərlə tanış olarkən görürük ki, müəllif hüquqa daha çox önəm verir. Bu da təbidir. Çünki hüquq Avropa həyat tərzində çox mühüm amildir. "Qərb mədəniyyətinin Şərq üçün ən çox aktual olan bu sahəsi artıq inkişafın sivilizasiya qanunauyğunluqlarına uyğun olaraq dünyanın bir çox bölmələrində intişar tapmış, iqtibas əsasında yayılmışdır" (6.s.42).

Hər iki məsələdə, istər hüquq, istər əxlaq məsələsində müəllifin fikrincə əsas vicdandır. "Vicdani umuminin tasvip ve iltizam ettigi her şey hem ahlaki, hem hukukidir. Tabiri aharla her nevi hukuk ve ahlakın ve binaenaleyh her nevi hükumet ve hakimiyetin yegane menşei cemaattır, cemaatın vicdani umumisidir" (1.s.12). Müəllif sonra qeyd edir ki, tarixdə bu iki prinsipi müntəzəm bir nəzəriyyə şəklinə salan islamiyyətdir. İslamiyyətin zuhuruna qədər bəşəriyyət arasında hökumət və hakimiyyət mənşəi haqqında hakim olan iman və "Müeyyedmin tarafı-illah" nəzəriyyəsi idi. "İslami noktai nazardan serbestçe tezahür eden iradei-milliye hükumetin yegane binasıdır. Hülasə islamiyet noktai-nazarından hükumetin əsası icmai-ümmet ve usulü de hakimiyeti-milliye ile murakabedir" (1.s.14).

Ə.Ağaoğlu əsərində bəşəriyyətin bu qanunlara sahib olmaq üçün əsirlərlə apardığı mübarizələrdən, Fransa inqilabından, Almanya hərəkatından və s. məsələlərdən bəhs edir. Müəllif hər millət öz hüquqlarını bilərək müqədaratını həll etmək üçün sərbəst olmağa, iradəli olmağa, mübarizə aparmağa çağırır. "Kendi mukadderatına sahib olmak, iradei milliyenin serbest tezahürünü temin eylemek, içinde yaşadığımız zamanın birer ahlak ve hukuk düsturu mahiyetini iktisab ederek, bu günki hukuku umumiyenin esasını teşkil ediyor" (1.s.15-16).

Yuxarıda qeyd etdik ki, Ə.Ağaoğlu bu əsərini məqalə şəklində Ankarada qəzetdə çap etdirən zaman 1922-ci il idi. Bu zaman Türkiyə də hakimiyyət daxilində maraqlı, ziddiyətli hadisələr baş verməkdə idi. Müəllif əsərində bunlara da münasibət bildirib. "Menşe itibariyle dünyanın en meşru hükumeti olan Ankara, mahiyet itibariyle de gerek dinen ve gerek urfen en makbulüdür. Dinen, çünkü icmai-ümmet ve münteşir ve faal murakabe esasları üzerine müesses ve ürfen çünki hakimiyet ve iradei milliye usullerine mebnidir" (1.s.17).

Ölkə daxilində və xaricində baş verən bu hadisələri geniş və əhatəli təhlil edən Ə.Ağaoğlu yazırdı ki, "yapdığımız milletin de qayet doğru olarak tarif ettigi veçhile haraketı milliyedir. Öyle bir harakatı milliye ki, hem ihtilali ve hem onkılabı şamil ve ayni zamanda da bunların her ikisinin fevkinde, her ikisinden daha şumullü, daha derin ve daha vasidir" (1.s.19).

DOI:10.30546/gdu.3.2024

Bildiyimiz kimi, millətin öz hüququ uğrunda mübarizəyə qalxması üçün milli şurun oyanması mühüm əhəmiyət kəsb edir. Xalqın gen yaddaşı, milli şüuru oyanır, demokratik dəyərlərə meyl yaranır və ən əsası xalqın azadlıq hissləri coşur. Onu da qeyd edim ki, "xalq kütlələrinin oyanışı və onların milli, siyasi və vətəndaş bərabərliyi uğrunda mücadiləyə səfərbər olunması XX əsrin ilk illərində Azərbaycan türklərinin intellektual elitasının qarşısında duran əsas vəzifələrdən biri idi. Bu istiqamətdə durmadan çalışan Azərbaycan aydınlarının ən parlaq nümayəndələrindən biri isə, heç şübhəsiz ki, Ə.Ağaoğlu idi"(3.s.134). Ona görə də xalqın milli şüuruna təsir etmək, onu hərəkətə gətirmək üçün müəllif yazırdı: "harekati milliye milletin amaki ruhundan doğmuştur ve qayri şüuri bir seylap gibi feveran edüb taşmıştır" (1.s.20). Xalqın özünə qaydışında və öz hüquqları uğrunda mübarizəyə qalxmasında nə bir nəzəriyyənin, nə fəlsəfi cəryanın mühüm rol oynamadığın qeyd edən müəllif yazırdı: "Harekati milliye ne bir nazariyenin, ne bir felsefe cereyanının, ne de muayyen bir siyasi ve içtimai temayüllün mahsulüdür" (1.s. 22). Burada milli heysiyyət, milli mənlik hissi və nəhayət milli şüurun dirçəldilməsi əsas rol oynayır. Müəllif də istər bu əsərində istərsə də bu məzmunda olan digər əsərlərində milli duyğu, düşüncə və şüura təsir edə biləcək nüyaslardan istifadə edərək oxucularının diqqətini bu kimi mühüm məsələlərə yönəldirdi.

Müəllif daha sonra xalq hərəkatı zamanı ortaya çıxan hadisələrdən və bu hadisələrin nəticəsində açıqlanan həqiqətlərdən də bəhs edir. "Bizce harekatı milliyənin mahiyet ve istikametini tayin eden yegane hakiki amiller işte şu hadiselerle onların ifade ettikleri hakikatlardır" (1.s.23).

Əsərdən aydın olur ki, Osmanlı imperatorluğu qurulduğu gündən onu məhv etməyə, qüdrətini alçaltmağa çalışan qüvvələr elə imperatorluğun öz içində olub. İkinci bir qüvvə dövlətçilik ideyalarına sadiq olan "Türkden yani Anadoludan ibaretti". Bu qüvələr Osmanlı imperatorluğunun yaşanması üçün bütün varlığı ilə çalışanlardır və onlar imperatorluqda Anadolunun mühüm rol oynadığını vurğulayaraq onu "devletin nüvesi, temel taşı" adlandırırlar. Çünki imperatorluğu qorumaq və yaşatmaq üçün hər zaman Anadolular canını və malını əsirgəməmişlər. Belə bir zamanda "İstanbul bir sersem, bir şaşkın izini yolunu qayip etmiş bir serseri halını alıyor, ne yapacağını takdirden aciz kalarak tereddütler içinde memleket ve millet için yalnız muhlik olmakla kalmayan çirkin lavhalar irae ediyor" (1.s.25).

Ə.Ağaoğlu əsərində xalq hərəkatı zamanı Türkiyədə ortaya çıxan həqiqətlərdən bəhs edir. "...hakikatların birincisi ve en mühimmi işte İstanbulun artık relıber ve müdiri-umur vazifasını ifa edemedigini ve edemiyecegini bu kadar bariz bir surette isbat etmiş olmasıdır" (1.s.28-29). Bu xalq hərəkatında Türk xalqı öz istiqlalı uğrunda bütün təhlükələrə rəğmən mübarizədən çəkinmədi. "Türkiye halkı namus, şeref, haysiyat ve istiklal yolunda hayvanından, arabasından başlayarak, oğul ve uşağına, kadınlarına kadar feda ettigi ve her türlü meşakkatlere katlandı..." (1.s.31). Xalq hərəkatının aşkara çıxardığı faktlardan bir də "Anadolu köylüsünün mahiyetidir, kıymetidir. Devlet ve devleti idare edenlerin kaffesi Anadolunun nekadar mühüm amil olduğunu zaten idrak ederek müşkül zamanlarda en son çare diye bu amilin ihtiva ettigi kuvvetlere müracaat eyledikleri bir çok tarihi vakıalarla sabittir" (1.s.34). Müəllif o illər Türkiyədə yaranan "Xalqa doğru" cəryanının da xalq hərəkatında mühüm rol oynadığını qeyd edir.

"Hülasa beşerde akıl ve zeka, iktidar ve istipdat hassarları kaldıkça bir kısmının diger kısm üzerine teveffüku bir kısmının diger kısmının idare eylemesi mübrem ve taş olarak kalacaktır" (1.s.39) söyləyən müəllif əsil məsələnin bu olduğunu qeyd edərək cəmiyyəti bundan qurtuluşa demokratiyaya çağırır. "Sınıf teşkilatı ile hukuk imtiyaziyenin madumiyeti bir memlekette demokrasinin mevcudiyetine delil addoiunamaz. Benim anlayışıma göre, demokrasi demek ekseriyetin hakimiyeti ekseriyetin taşıdığı zihniyetin tarzı telakkinin revacı

DOI:10.30546/gdu.3.2024

ekseriyet ihtiyacının tatmini ekseriyet temayülatının ve arzularının hayatı milliye üzerine tesiri demekdir" (1.s.42).

Xalqının azadlığın, xoşbəxtliyini hər şeydən üstün tutan millətsevərlər, vətənpərvərlər rəhbərlər haqqında ədib yazırdı. "İşte bir cemaat içinde böyle bir zümre teşekkül eder etmez, onun yüksek, pak kısmı daima hakiki mülhemat menbalarını keşfeder ve o cemaatın hakiki saadet ve refah yolunu irae eyler. Tabiatı ile böyle bir zümre her şeyden evvel cemaatı teşkil eden unsurun ekseriyetini arar, onu anlamağa çalışar ondan mülhem olmağa başlar, maddi, manevi ihtiyaçlarını tatmine koyulur"(1.s.55). Müəllif sonra təəssüflə bildirir ki, bizdə bəzən rəhbərlərlə sadə xalq arasında dərin bir ucurum yaranır. "Rehber münevver zümrenin esas vazifesi işte bu şeraiti tehiyeden ve istiklal ve hürriyet temellerini vazeylemekten ibarettir" (1.s.61).

Müəllif "Sərbəst insanlar ölkəsində" əsərində olduğu kimi burada da Şərq-Qərb nəzəriyyəsinə, dünyagörüşünə, təcrübəsinə istinad edərək onları müqayisə edir. "Bezen Şarkmı, Qarpmı diye soruluyor. Bazen de ananettan, mukaddesattan bahsolunuyor. Fakat bütün bunlar qayri muayyen, qayrı vazıh, karmakarışık, yekdigerine girift bir tarzda vaki oluyor. Ne şarklı Şarkın ne olduğunu, oradan ne umduğunu, ne aradığını nihayete kadar izah eyliyor, ne qarplı Qarptan neler ümit ettigini, ne istedigini söylüyor" (1.s.62). Əslində Ə.Ağaoğlu təkcə əsərlərində deyil əməllərində də millətinin, xalqının, vətəninin azadlığı, inkişafı, xoşbəxtliyi üçün mübarizə aparmış və ömrünün sonuna kimi məqsədinə sadiq qalmışdır. "Bu məqsəd isə Şərqin Qərbdən ciddi geriliyinin aradan qaldırılması və türk-müsəlman xalqlarının dünyada layiq olduqları yeri tutmasına yardımçı olmaq idi" (3.s.41). Buna nail olmaq üçün Ə.Ağaoğlu müsəlman dünyasındakı tənəzzülün aradan qaldırılmasını təvəqqi edir və "...müsəlman xalqları tərəfindən Qərbin təkcə elmi-texniki naliyyətlərinin deyil, həm də mənəvi-siyasi dəyərlərinin və ilk öncə, azadlıq və bərabərlik prinsiplərinin mənimsənilməsində görürdü"(3.s.63).

Yuxarıda qeyd etdiyimiz kimi Ə.Ağaoğlu Qərb, Şərq mədəniyyəti məsələsini "Üç mədəniyyət" əsərində daha geniş şəkildə izah edir. "İşte bu ortak din, bu ortak dimağ ve kalp faliyetidir ki bütün bu alemin zihniyetini, görüş tarzını, duyğularını, kalplerini birleştirmiştir. Her nereye getseniz aynı düşünüş ve duyuş tarzına, aynı zihniyete kafa ve kalbin aynı metot üzerine hareket ettiklerine rastlarsınız" (2.s.7).

Görkəmli alim Şahnəzər Hüseynovun fikrincə Ə.Ağaoğlu "bu əsərdə apardığı araşdırmaları və irəli sürdüyü düsturları onun çox orijinal bir zəka sahibi olmasını sübut edir"(6.s.79-80).Müəllif tamamilə haqlıdır. Çünki ədib əsərində dövlət, mədəniyyət, hakimiyyət haqqında çox qiymətli fikirlər irəli sürüb və bu fikirlər bu gün əhəmiyyətlidir. "Zaten medeniyet bölünmez olduğundan, onu tam almak istemeyenler ona çarpıyor, çöküyorlar. Yüz yıldan beri çabalayıp müspet bir sonuca varamadığımızın sebebi hep budur" (2.s.13). Ə.Ağaoğlu hər iki mədəniyyət haqqında mülahizələrini söylərkən "Qərb mədəniyyətini qəbul etmək dəst-xəttini özünəməxsus analitik müqayisələrdən istifadə edərək əsaslandırmağa calışır" (6.s.37).

Ə.Ağaoğlu "Üç mədəniyyət" əsərində Jan-Jak Russo və L.Tolstoy kimi görkəmli söz, fikir sahiblərinin də bu sahədəki düşüncələrinə, baxışlarına yer verib. O, "mədəniyyəti inkar edən mütəfəkkirlərin mövqeyini tam bir görüş kimi nəzərə almış və onlardan öz mövqeyinin bütövlüyünə xidmət edən bir arqument, dəlil kimi istifadə etmişdir" (6.s.40).

"Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni həyatında, azadlıq mücadiləsində, müstəqillik uğrunda misilsiz xidmətlər göstərmiş, lakin idealı, amalı sovet ideologiyasına, rejiminə qatı düşmən sayıldığı üçün tarixin səhnəsindən silinməsinə, yaxud böhtan və iftiralarla gözdən salınmasına, unudulmasına çalışılan şəxsiyyətlərimizdən" (9.s.10) biri də Azərbaycan mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi Ə.Ağaoğludur. O, digər məsələlər kimi bədii-

DOI:10.30546/gdu.3.2024

fəlsəfi nəsrində də onu düşündürən, narahat edən müxtəlif problemləri, o cümlədən mənəvi-əxlaqi məsələləri də diqqətdən kənarda qoymamışdır. Gülsərən Akalın fikrincə Ə.Ağaoğlu "Milli tərbiyə və milli şüur mövzusunda cəmiyyətdə əxlaq nədir, necə olmalıdır suallarına cavab verməyə çalışmış, cəmiyyətdə əxlaqın önəmini hər fürsətdə dilə gətirmişdir. Bu səbəblə, Ə.Ağaoğlunu Azərbaycandakı yeniləşmə hərəkatının lideri adlandırmaq olar" (4.s.21).

Ə.Ağaoğlu mühakimələrində müsəlmanlarla xaricilərin əxlaq prinsiplərinin, adət-ənənələrinin müqayisəsini verərək bildirmişdi ki, "bütün müasir cəmiyyətlərin xaricində və dünənində qalmış olduğumuzu etiraf etməliyik" (4.s.22). Müəllif əxlaq haqqında şərqli təsəvvürlərinin yanlış olduğunu iddia edirdi. "Bizdə bir çoxları əxlaqı sırf cinsi münasibətlə məhdudlaşdırır". Ə.Ağaoğlu əxlaq, tərbiyə məsələsində ailənin böyük rol oynadığını bildirir. "Ailə-fərdlə cəmiyyət, təbiətlə insanniyyət, madiyyatla mənəviyyat arasında atılan ilk əsaslı körpüdür" (4.s.22). Ailənin möhkəmliyi, mənəvi-əxlaqı sağlamlığı üçün qadın və kişi arasında həm fitiri, təbii həm də ictimai, mənəvi bağlılıq olmalıdır. Ailə saxtakarlıqdan, yalandan, hiyləgərlikdən uzaq olmalıdır. Bu zaman "fərdi ailələr bütöv şəkildə ortaya çıxıb müstəqil bir vahid hicrə təşkil edirlər".

Ə.Ağaoğlunun fikir və düşüncələrinə görə "din bir millətin əxlaq anlayışını təşkil edir. Ə.Ağaoğlu dinin əxlaqi təsirlərinin çox zəif olduğunu, mədrəsələrdə əxlaq dərsi keçilmədiyini, alimlərin də əxlaqı dini vəzifədən kanar hesab etdikləri üçün əxlaq qaydalarımızın fərdləri və cəmiyyəti inkişaf etdirəcək qüdrətinin olmaması fikrindədir" (4.s.44).

Beləliklə Ə.Ağaoğlunun "milli intibah şərtləri görüşlərində getdikcə genişlənib dolğun məzmun alırdı. XX əsrin əvvəllərində artıq onun təsəvvüründə yaratdığı proqram siyasi və milli şüurun inkişafı, milli konsilidasiya, doğma mədəniyyətin tərəqqisinə nail olmaq, beynəlxalq münasibətlərdən faydalanmaq kimi vəzifələri, habelə çarizmin milli zülmünə, rus şovinizminə, yerli istismarçı qüvvələrə, orta əsr geriliyinə, mövhumat və sxolastikaya, milli lovğalıq və milli ədavət hallarına qarşı mübarizə tələblərini əhatə edirdi" (8.s.256). Odur ki, müəllifin nəsrində bütün dünya xalqları üçün müasir səslənən, demokratik mənəvi-əxlaqi normalardan, onların təbliğindən bəhs olunurdu.

**Nəticə və elmi yenilik.** Mükəmməl Qərb təhsili görən Ə.Ağaoğlu yaradıcılığında milli problemlərin həllinə daha çox cəhd göstərmişdir. Şərq və Qərb mentalitetlərini, dini görüşləri mükəmməl öyrənən ədibin yaradıcılığı geniş və zəngindir. Türk-islam dünyasını narahat edən bütün məsələlər onun yaradıcılığında əksini tapıb; milli dil, din, elm, maarif, xalqın özünüdərk məsələsi və s. Xalqın azadlıq hərəkatında islamçılıq, türkçülük və müasirlik yolu tutan ədibin bütün yaradıcılığı bu gün də xüsusi əhəmiyyət kəsb edir. Ona görə bu gün vüqarla deyə bilərik ki, Ə.Ağaoğlu "XIX əsrin sonu və XX əsrin birinci yarsı hüdudlarında formalaşmış Azərbaycan ictimai-siyasi fikrinin böyük mütəfəkkir nümayəndəsidir. Onun dünyagörüşü özünəməxsus milli ideya və qərbçilik görüş və baxışlarının sintezindən ibarət olmuşdur"(5.s.3). Qabaqcıl dünyagörüşlü şəxslərdən biri olan Ə. Ağaoğlunun yaradıcılığı bütün dövr üçün aktual və əhəmiyyətli hesab olunan çoxsaylı problemlərin şərhi baxımından xüsusi maraq kəsb edir. Əsərlərində Şərq-Qərb dixatomiyası, islam və müasirlik, türk tarixi yaddaşına qaydış məsələləri də mühüm yer tutmaqdadır.

Ş.Hüseynovun 1998-ci ildə fəlsəfə elmləri doktoru, professor C. Mustafayevin redaktorluğu ilə çap olunmuş "Əhməd bəy Ağaoğlunun dünyagörüşü" adlı monoqrafiyasının Əhməd bəyin bədii-fəlsəfi irsinin, eyni zamanda, sosial baxışlarının öyrənilməsindəki rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Ş. Hüseynov sözügedən məsələyə elmi araşdırmalar apararaq münasibət bildirmiş, dəyərli ümumiləşdirmələr etmiş və Ə. Ağaoğlunun dünyagörüşünün formalaşmasını əsasən iki fikir təmayülü ilə səciyyələndirir: "birincisi -artıq

DOI:10.30546/gdu.3.2024

praktikada reallaşmış Qərbin sosial mənəvi məzmunlu ümumbəşəri fikirlərinin getdikcə başqa regionlarda da qəbul edilməsi tendensiyası ilə; ikincisi- müxtəlif imperiyaların (Osmanlı imperiyası, Rusiya imperiyası və s.) dağılması nəticəsində xalqların milli dirçəliş, milli oyanma və onun real ifadəsi olan milli ideya, milli mənlik oyanma və onun real ifadəsi olan milli ideya, milli mənlik şüurunun meydana çıxması tendensiyası ilə"(6.s.3). Müəllif fikirlərini yekunlaşdırarkən sonda belə qənaətə gəlirdi ki, "Ağaoğlunun nəinki ədəbi irsinə, eyni zamanda, bütövlükdə dünyagörüşünə yenidən baxılması zərurəti vardır. Çünki bir daha qeyd edim ki, Ağaoğlu haqqında az da olsa yazılmış əsərlərdə deyilən fikirlərin əksəriyyəti dünyagörüşü problemi ilə bağlıdır" (5.s.164).

Müəllifin "Mən kiməm" əsəri insanın təzadlı daxili dünyası, mürəkkəb təbiəti haqqında mükəmməl təsəvür yaradaır. Bütün həyatını bəşəri ideyalar uğrunda mübarizəyə sərf edən müəllifin yaradıcılığında da bu özünü büruzə verir. Yaradıcılığı həm janr, həm də kəmiyyət baxımından çox geniş olan ədibin "bu tarixi-fəlsəfi essesini sırf mümuar ədəbiyyat nümunəsi adlandırmaq bir qədər çətindir. Lakin memuar yalnız tarixlərə, konkret şəxsiyyətlərə və s. əsaslanan hadisələr silsiləsi deyil: yalnız yaddaşın deyil, hisslərin də memuarları var və Əhməd bəy də "Mən kiməm" əsəri ilə təkcə yaddaşında deyil, həm də duyğularında, hisslərində yaşananları özünün və bizim hamımızın əbədi əzablarını başqalarına çatdırmağa çalışmışdır"(7.s.48-49).

"Mən kiməm" əsərində müəllif etik, fəlsəfi görüşlərini, daxili mübarizələrini ifadə etməyə çalışır. Əsərlə tanışlıq zamanı aydın olur ki, müəllif bu əsərində əsasən Qərb və Şərq insanının dünyagörüşlərini, həyata baxışlarını, təfəkür tərzlərini qarşlaşdırır və müəllifi daima düşündürən "Şərq-Qəqb məsələsi tamamilə orjinal ifadəsi baxımından özünün həllini tapmışdır. Əsər bir çox cəhətdən bəzi Avropa filosoflarının əsərlərinin üslubunda yazılsa da, problemə orjinal yanaşma baxımından özünəməxsusdur" (10.s.267).

Müəllifin bədii-fəlsəfi irsinin ən dəyərli nümunələrindən olan **"**Mən kiməm**"** əsəri ilə M.F.Axundzadənin "Kəmalüddövlə məktubları" arasında mövzunun qoyluşu, süjet xətti baxımından bir yaxınlıq, oxşarlıq və paralelik var. Hər iki əsərin məğzi, ideyası əsasən azad, demokratik cəmiyyət uğrunda mübarizədən bəhs edir.

### *Ədəbiyyat*

1. Ahmed Ağaoğlu. İxtilalmı-inqilapmı. Ankara 1942, 72 s.
2. Ahmed Ağaoğlu. Üç medeniyyet. İstanbul. 1972
3. Balayev Aydın. Əhməd bəy Ağaoğlu: dahi mütəfəkkir, qorxmaz fədai və yorulmaz millət qurucusu. Bakı.JekoPrint çap evi. 2021, 134 s.
4. Gülsərən Akalın. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. Çevirəni və nəşrə hazırlayan Samirə Məmmədova. 2004
5. Hüseynov Şahnəzər. Əhəmədbəy Ağaoğlunun intelektual həyatı və biz. "Azərbaycan" jurnalı, N-9, 2004, 164 s.
6. Hüseynov Şahnəzər. Əhmədbəy Ağaoğlunun dünyagörüşü. Bakı. Azərnəşr. 1998, 107 s.
7. Quliyev Vilayət. Ağaoğlular. Bakı. Ozan, 1997, 236 s.
8. Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı. Ərgünəş. 2014, 264 s.
9. Tahirli Abid. Sözlə yarananlar, sözü yaşadanlar. Bakı. Əbilov, Zeynalov və oğulları. 2001, 305 s.
10. Şamiloğlu Şahbaz (Musayev). Əhməd Ağaoğlunun mühacirət dövrü bədii-fəlsəfi mənəvi-əxlaqi problemlər. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. Bakı. N-5, 2018, Elm və təhsil, 267 s

DOI:10.30546/gdu.3.2024

## ВОСТОЧНО-ЗАПАДНАЯ КУЛЬТУРА В ТВОРЧЕСТВЕ АХМЕД БЕКА

***Д.ф.н.Гасанова Севиль Гияс кызы, д.ф.н. Гулиева Гаранфил Дуньямин гызы***

***Резюме***

В конце 19-го и начале 20-го веков в различных областях Азербайджана выросли многие выдающиеся интеллектуалы и интеллигенты. Они внесли свой вклад в становление и развитие азербайджанской литературы, прессы, цивилизации, истории независимости и основ общественного сознания. Одной из таких великолепных личностей был Ахмед бек Агаоглу, известный деятель не только Азербайджана, но и в большом тюркском мире и на Востоке. Ахмед бек Агаоглу, талантливый журналист, публицист, писатель и дальновидный политолог, писал на азербайджанском, русском и французском языках и имел богатое литературное наследие. Среди них произведения о Восточно-Западной философии и цивилизации, которые за короткое время прославили Агаоглу как в литературных, так и в политических кругах. Автор написал большинство своих статей и работ в этом контексте, проживая жизнь иммигрантом в Турции. Пока он писал эти произведения, сформировалось его мировоззрение и взгляды на жизнь. Творец всегда держал во внимании происходящие вокруг него общественно-политические события и ясно выражал о них собственные идеи и мнения. Он, не колеблясь, давал собственные убедительные резюме о некоторых политических событиях. Поэтому идеи и мысли, которые автор излагает в своих произведениях и статьях, прекрасно отражают Восточно-Западную философию, цивилизацию и историю. Эти источники, сыгравшие важную роль в становлении правового государства и свободного общества, актуальны на сегодняшний день и на будущее.

## EAST-WEST CULTURE IN THE CREATIVITY OF AHMED BEY

***d.of ph. Hasanova Sevil Giyas, d.of ph. Guliyeva Qaranfil Dunyamin***

***Summary***

At the end of the 19th century and the beginning of the 20th century, many prominent intellectuals of thought and speech in various fields grew up in Azerbaijan. They left a unique, rich literary and artistic heritage in the formation and development of Azerbaijani literature, press, culture, history of independence and, most importantly, public consciousness. One of such outstanding personalities was Ahmed Bey Agaoglu, a well-known man of thought not only in Azerbaijan, but also in the Great Turkic world, in the Eastern world. Ahmed Bey Agaoglu as a talented journalist, publicist, writer and far-sighted political figure, he wrote and created in Azerbaijani, Russian and French languages and had a rich literary, artistic, scientific and theoretical heritage. Among them, writings and works on East-West philosophy and culture he quickly made Agaoglu famous in both literary and Political politics. The author wrote most of his articles and works in this context while living in emigration in Türkiye. When he was already writing these works, his worldview and outlook on life were formed. The writer, who always paid attention to the socio-political events taking place around, clearly expressed his thoughts and opinions about them. He did not even hesitate to express his healthy critical attitude about some political events. Therefore, the ideas and thoughts put forward by the author in both these works and articles perfectly reflect East-West philosophy, culture and history. These sources, which play an important role in building a legal state and a free society, are relevant today and tomorrow.

***Daxil olduğu tarix: 10 sentyabr 2024***